*“Göyərçin” – 65*

**Bu il nəsillərin sevimli jurnalı olan “Göyərçin” 65 yaşına çatır. Ancaq neçə yaşı olsa da, “Göyərçin” hər zaman balaca soydaşlarımızın əziz dostu, sirdaşı və yolgöstərəni olub. Yorulmadan, usanmadan onlara ana dilimizin şəhdini-şirəsini dadızdırıb, şeir, hekayə, nağıl payını əsirgəməyib, hər birinə davranış qaydaları “dərs”i keçib. Əlvan rəngləri ilə göz oxşayaraq, balacalarda estetik zövq tərbiyə edib. “Göyərçin”in əriş-arğacında heç vaxt yanlış ilmə olmayıb, uşaqların mənəvi dünyasının zənginləşməsi amalı ilə yaşamaqla, bu yaşına qədər gəlib çıxıb.**

# “Əlifba”dan sonra ikinci dərsliyimiz – “Göyərçin”

İlk dəfə onu əlimizə alanda hansımız fərəhlənməmişik? “Göyərçin”in uşaq kimi saf qəlbi, şirin nəqmələri gözümüzü-könlümüzü az sevindiribmi? Elə indi də bu jurnalı görəndə üzümüz gülür, şirin xatirələrə dalırıq. “Göyərçin”də əsəri çap olunan şair və yazıçıların, şəkilləri verilən rəssamların da sevinci hədsiz olub. Elə bu sətirlərin müəllifi mərhum baş redaktor Tofiq Mahmudun, hazırda jurnala rəhbərlik edən Rafiq Yusifoğlunun vaxtında uşaq şeirlərinin dərcinə görə çox sevinib.

Bir vaxtlar bu jurnalda çox tanınmış şair və yazıçılarımız balacaları şeir töhfələri ilə sevindiriblər. Rus və qırğız uşaq jurnalları “Murzilka” ilə “Bayçiçek” də, digər dostları da ad günlərində “Göyərçin”ə ən xoş arzularını yetiriblər.

“Göyərçin”in 65 illik yubileyi ilə əlaqədar jurnalın baş redaktoru, Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu fikirlərini bizimlə bölüşdü:

– “Göyərçin” Azərbaycan göylərində inamla qanad çalır. Milli mətbuat salnaməmizdə onun da özünəməxsus yeri var. Görkəmli şairimiz Hikmət Ziya bir zaman “Göyərçin” qartallar yetişdirir”, - demişdi. Doğrudan da, bir-birini əvəz edən nəsillərin tərbiyəsində bu jurnal çox böyük işlər görüb. Öz sehrli qanadlarında evlərə nağıl, şeir, hekayə, tapmaca, əyləncə, bir-birindən maraqlı rəsmlər aparan “Göyərçin” dövlətimizin himayəsi altında öz uçuşlarını indi də ləyaqətlə davam etdirir.

1958-ci ildən bu günədək nəşr edilən jurnalımızdan ibtidai siniflərimiz üçün dərsliklər hazırlanarkən ilkin mənbə kimi həmişə istifadə olunub. 65 il ərzində “Göyərçin” zəngin bir kitabxana yaradıb. Onun səhifələrində dünya və eləcə də Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələri, inciləri nəşr edilib.

“Göyərçin”i “Əlifba”dan sonra ikinci dərslik adlandıranlar yanılmırlar. Bir çox görkəmli qələm sahibləri onun müəllifləri olublar. Abdulla Şaiq, Mirzə İbrahimov, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Əhməd Cəmil, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, Hüseyn Abbaszadə, İsmayıl Şıxlı, Bayram Bayramov, Qılman İlkin, Gülhüseyn Hüseynoğlu, Balaş Azəroğlu, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qasım Qasımzadə, Salam Qədirzadə, Nəriman Həsənzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Elçin, Əlibala Hacızadə, Mövlud Süleymanlı və digər yazıçılarımızın məhz “Göyərçin” üçün də əsər yazmaları çox önəmli faktlar sırasındadır.




“Göyərçin”in daha məzmunlu nəşr olunmasında tanınmış uşaq yazıçılarımızdan Mikayıl Rzaquluzadənin, Mirmehdi Seyidzadənin, Teymur Elçinin, Xanımana Əlibəylinin, Tofiq Mahmudun, Hikmət Ziyanın, İlyas Tapdığın, Məstan Günərin, Ələviyyə Babayevanın, Əzizə Əhmədovanın əməyi böyük olub. İndi onların yolunu Zahid Xəlil, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Ələsgər Əlioğlu, Aləmzər Əlizadə, Sevinc Nuruqızı, Aygün Bünyadzadə, Reyhan Yusifqızı və başqaları layiqincə davam etdirirlər.

“Göyərçin”in qoşa qanadlarından biri də rəsm olmuşdur. Ölkəmizin ən görkəmli rəssamlarının əsərləri jurnalımızın daha gözəl çapına zəmin yaradıb, balalarımızın estetik zövqünün formalaşmasında mühüm rol oynayıb. Xalq rəssamları Yusif Hüseynov, Rafiq Mehdiyev, Arif Hüseynov, tanınmış uşaq rəssamı Rəşid Umurov ayrı-ayrı vaxtlarda “Göyərçin”in bədii redaktoru vəzifəsində çalışıblar. Sevindirici haldır ki, “Göyərçin” jurnalı, onun səhifələrində çap olunan bədii əsərlər və rəsmlər haqqında, həm ölkəmizdə, həm də qardaş Türkiyədə tədqiqat əsərləri yaranıb və bu proses davam etməkdədir.

“Göyərçin”in yeni müəllifləri, rəssamları da, heç şübhəsiz, onun bugünkü oxucularının arasından çıxacaq. Uğurlar olsun!

**Hazırladı:**
**Əli NƏCƏFXANLI, “Xalq qəzeti”**